UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2024.5.83.038

# ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN BƏRPASI UĞRUNDA MÜBARİZƏNİN CƏMİYYƏTDƏ İCTİMAİ-SİYASİ FƏALLIĞIN GÜCLƏNMƏSİNDƏ ƏHƏMİYYƏTİ

**AYSEL ŞAMİLOVA**
*Sumqayıt Dövlət Universiteti*
*E-mial: aysel.yaqubova5@mail.ru*

## Giriş

İkinci Qarabağ müharibəsindən artıq 4 il keçmişdir. Azərbaycan xalqı 30 illik işğal dövründə ərazimizin düşmən tapdağından azad ediləcəyinə inamını heç vaxt itirməmişdi. Bu inam, əlbəttə ki, dövlətimizin uğurlu siyasətinə, dövlət-xalq birliyinə əsaslanırdı.

Artıq tarixə qovuşmuş ATƏT-in Minsk Qrupunun apardığı danışıqlara sadiq qalmaqla və Ermənistanın bu prosesi imitasiya etməsini səbrlə müşahidə etməklə yanaşı, bu illər ərzində ordu quruculuğu ilə bağlı məsələlərin həlli diqqət mərkəzində saxlanılmışdır. Ordu quruculuğu Prezident İlham Əliyevin 2003-cü ildən 2020-ci ilədək inkişaf siyasətinin xüsusi hədəflərindən biri idi. Bunun üçün güclü hərbi sənaye komplekslərinə malik olan dövlətlərdən ən müasir silah və hərbi texnika almaqla ordunun maddi və texnoloji bazası gücləndirildi.

44 günlük Vətən müharibəsinə qədər ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizənin əsas nəticələrindən biri cəmiyyətdə ictimai-siyasi fəallığın güclənməsi oldu.

## Müharibənin əvvəli

Qeyd etməliyik ki, hələ müharibə ərəfəsində Azərbaycanın qələbəsi, tarixi ədaləti bərpa edəcəyi real düşünən insanlarda, siyasətçilərdə heç bir şübhə doğurmurdu. Hətta əcnəbi mütəxəssislər də əmin idilər ki, Qarabağ münaqişəsinin həlli üçün hərbi yol götürülərsə, Ermənistan böyük itki ilə üzləşəcək. Çünki Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev o qədər güclü ordu qurmağa nail olmuşdur ki, Ermənistan heç vaxt möhkəm təmələ söykənərək onun qarşısında dayanmağa ümid edə bilməzdi.

Erməni hərbçilərinin Azərbaycan ərazilərini işğal etməsi azərbaycanlıları öz ata-baba yurdlarından didərgin salmaqla yanaşı, xalqımızın iqtisadi və mədəni irsinə də ciddi ziyan vurdu. Bu müddət ərzində Ermənistan Azərbaycanın şəhər və kəndlərində infrastrukturu tamamilə dağıdıb, ölkənin işğal olunmuş ərazilərini dəhşətli vəziyyətdə qoyub, Azərbaycana milyardlarla dollar dəyərində maddi ziyan vurub. İşğal zamanı iqtisadi və fiziki sərvətlərlə yanaşı, Azərbaycanın fərqli mədəniyyət abidələri də dağıdılıb.

Vətən müharibəsi ərəfəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva dəfələrlə bildirmişdi ki, biz hamımız döyüşçüyük və erməni yalanını ifşa etmək üçün bütün gücümüzü sərf etməliyik (10).

Ali Baş Komandanın sözlərincə desək, "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq, bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində" (5, s.233).

Aydın idi ki, xalqımızın münaqişəni diplomatik vasitələrlə aradan qaldırmaq cəhdləri nəticəsiz qaldıqda haqq-ədaləti bərpa etmək üçün yalnız bir yol qalırdı.

Bu azmış kimi, 27 sentyabr 2020-ci il tarixində mövcud atəşkəs sazişini kobud şəkildə pozan Ermənistan hərbçiləri cəbhə xəttinə yaxın Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini məqsədyönlü şəkildə artilleriya atəşinə tutaraq Azərbaycana qarşı yeni döyüş əməliyyatlarına başladılar. Nəticədə hərbçilərdən əlavə 2-si uşaq olmaqla 11 mülki azərbaycanlı həlak oldu.

Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyev düşmənin hərbi təxribatının qarşısını almaq və təcavüzünə son qoymaq üçün dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri verdi (1).

Azərbaycan Milli Ordusu 1990-cı illərin əvvəllərində Birinci Qarabağ müharibəsi zamanı Ermənistan ordusunun zəbt etdiyi əraziləri geri almaq və Ermənistanın Azərbaycana hücumunu dayandırmaq üçün sentyabrın 27-də bütün cəbhə boyu əks-hücuma keçdi. Çoxdan gecikmiş tarixi ədaləti otuz ildən sonra 44 gün davam edən İkinci Qarabağ müharibəsi bərqərar etdi. Beləliklə, sentyabrın 27-də əzəli və tarixi ərazilərimizin işğaldan azad edilməsi uğrunda 44 günlük döyüş - Vətən Müharibəsi, İkinci Qarabağ müharibəsi və "Dəmir yumruq" əməliyyatı başladı (14).

Erməni təcavüzünə cavab olaraq Milli Ordunun başladığı Vətən Müharibəsi nəticəsində 30 illik Qarabağ həsrətinə cəmi 44 gündə son qoyuldu. Vətənpərvər oğlanlarımızın ermənilərin hücumunu dəf etmələri, sonra isə düşmənə sarsıdıcı zərbələr endirmək üçün əks-hücuma keçmələri xalqımızın qələbə əzmini nümayiş etdirdi. Bu dövrlərdə ordumuzun Ermənistan ordusuna qarşı apardığı müharibə milli şüurun, ordunun xalqla birliyinin simvolu oldu. Hə-

min gün hər kəs Vətənin sədaqətli davamçısı oldu. İllərin iztirabları birdən-birə yerini xoşbəxtliyə verdi. Ordumuzun uğurları bütün dünyaya sübut etdi ki, azərbaycanlılar qarşılarına qoyduğu hər hansı məqsədi yerinə yetirməyə qadirdirlər.

**Xalqımızın yüksək həmrəyliyinin nümayişi**

Azərbaycan xalqı münaqişə zamanı inanılmaz həmrəylik nümayiş etdirərək, Ali Baş Komandan İlham Əliyevin yanında birləşdi. Vətən övladları torpaqlarımız üçün canlarından keçdilər. Bütün bunların mənası var idi və nəticədə Azərbaycan işğalçılara qalib gəldi və öz qədim ərazilərini geri aldı. 44 günlük Vətən müharibəsi möhtəşəm Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirərək xalqımızın qələbəsi ilə başa çatdı (14). Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edilməsindən dərhal sonra noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya prezidentləri tərəfindən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması haqqında üçtərəfli bəyannamə imzalandı. Nəhayət, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi və Ermənistan tabe olmaq məcburiyyətində qaldı (1).

Prezident İlham Əliyev Vətən müharibəsinin başlandığı günün sentyabrın 27-nin Azərbaycan Respublikasında müharibədə rəşadətlə döyüşmüş, Azərbaycan bayrağını dalğalandıran əsgər və zabitlərimizə ehtiram əlaməti olaraq Azərbaycan Respublikasında Xatirə Günü kimi qeyd edilməsi haqqında sərəncam imzaladı (2, s.1). Bu aksiya şəhidlərin ruhuna və onların əzizlərinə hədsiz ehtiramın əlamətidir.

Beynəlxalq aləm uşaqdan böyüyə qədər bütün vətəndaşların prezidenti dəstəklədiyinin şahidi oldu, 44 günlük Vətən müharibəsində düşmənə qalib gəlmək üçün birləşdi. Siyasi baxışından, dini inancından asılı olmayaraq, ölkəmizdə hamı bir araya gələrək vətən yolunda hər şeyi qurban verməyə hazır olduğunu göstərdi və nəticədə xalqımız möhtəşəm qələbə çaldı. Bütün bunlar, təbii ki, vətəndaşın öz borcunu dərk etdiyini və milli maraqlar uğrunda bir yumruq kimi birləşdiyini nümayiş etdirir.

Vətən müharibəsi Azərbaycan Milli Ordusunun hər bir üzvünün vətənin müdafiəsi yolunda canından keçməyə, onları məğlub etməyə nə qədər hazır olduğunu düşmənə bir daha nümayiş etdirdi, bizim əsas istəklərimizi və duyğularımızı ortaya qoydu. Ordumuzun zəfər şücaəti elə bil xalqımıza qanad verirdi. Ermənistan silahlı birləşmələri qoşunlarımızın rəşadəti qarşısında baş əydilər, qondarma respublikanın vicdansız və hiyləgər rəhbərliyi öz təcavüzkar siyasətini etiraf etdi.

Öz iyrənc və bədxah əməlləri ilə diqqəti əsas həqiqətlərdən yayındırmaq niyyətində olan hiyləgər düşmən ilahi həqiqəti anlamalı oldu. Ən önəmlisi odur ki, bu müharibə zamanı bütövlükdə ölkə öz lideri ətrafında birləşdi. Qorxmaz və mərd əsgərlərimiz qələbəyə doğru inamla irəliləyərək düşmənin hərbi hissələrini, istehkamlarını, ön xətdəki mövqelərini, döyüş texnikası və infrastrukturunu, canlı qüvvəsini, atəş nöqtələrini dərinliklərdə darmadağın etdikdən sonra işğal altında olan torpaqlarımızdakı strateji əhəmiyyətli yüksəklikləri və kəndlərimizi tez bir zamanda azad etməyə nail oldular. Bu xoşbəxtliyi vətəni müdafiə edərkən yaralanmış qazilərimizə və şəhidlərimizə borcluyuq. Bundan sonra baş verənlərin bir daha təkrarlanmaması üçün hər bir azərbaycanlı Vətənin daha da qüdrətlənməsi, əhalinin rifahı üçün əzmlə çalışmalıdır.

Tarixi qələbə xalqımız üçün ciddi sınağın nəticəsidir. Azərbaycan dövləti qalibdir; irəlidə zəfər qazanan ölkə həmişə qalib dövlət olacaq. 44 günlük Vətən müharibəsində Qələbə Günü Xeyrin Şər üzərində qələbəsi və tarixi ədalətin bərpası idi. Xalqın bir araya gəlib düşmənə "dəmir yumruq" vurması tarixə həmişə həkk olunacaq. "Qarabağ Azərbaycandır!" devizi arxasında bir araya gələn xalqın şücaəti bütün dünyaya bizim qətiyyətimizi, həmrəyliyimizi, iradə gücümüzü göstərdi. Onlardan sonrakı nəsil üçün əbədi, yaddaqalan dastan yaratdıqlarına görə vətəninin müdafiəsində canlarından keçənlər heç vaxt unudulmayacaq.

10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyannamə Ermənistanın dünyaya boyun əydiyini və Azərbaycanın hərbi-siyasi uğurunu təqdim etdi (6, s.65).

Noyabrın 8-də, 28 illik həsrətdən sonra Qarabağın ürəyi Şuşanın rəşadətli ordumuz tərəfindən işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsində Azərbaycanın ən mühüm qələbələrindən biri oldu. "Tarixi Zəfərimizi 3 minə yaxın şəhidimizin qanı ilə, qazilərimizin və digər cəsur döyüşçülərimizin şücaətləri ilə qazandıq. Bu baxımdan Şuşanın işğaldan azad olunduğu günün Zəfər Günü, İkinci Qarabağ müharibəsinin başlandığı 27 sentyabr tarixinin Anım Günü kimi təsis edilməsi təsadüfi deyil" (11, s.16).

Bütövlükdə, 44 günlük Vətən Müharibəsi bizim hər bir əsgərin vətəninə sevgimizi, bir-birimizlə mehribanlığımızı, həmrəyliyimizi nümayiş etdirdi. Millətimizi yad əsarətdən qurtarmaq üçün şəhərlərindən, rayonlarından, kəndlərindən, qəsəbələrindən ayağa qalxan hər bir vətən oğlu əlinə silah götürüb öz zəfər hekayəsini qələmə aldı.

Şəhidlik zirvəsinə torpaqlarımızı işğaldan müdafiə edən canlarından keçmiş oğullarımız çatmışdır. Dövlətimizin başçısı İlham Əliyev xalqa müraciətin-

də silahlı qüvvələrimizin müharibədə qələbə çalmasına verdiyi töhfəni ardıcıl olaraq vurğulamışdı; “Müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim. Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir” (4).

2020-ci il artıq tarixi bir il kimi Azərbaycan xalqı üçün siyasət, diplomatiya və digər sahələrdə nailiyyətlər ili oldu. İlin ən əlamətdar nailiyyəti Azərbaycan Prezidenti İlham Əliyevin komandanlığı ilə əldə etdiyimiz 44 günlük Vətən Müharibəsindəki möhtəşəm, tarixi qələbəmiz oldu.

## Qələbənin tarixi əhəmiyyəti

Xalqımız Prezidentimizin bu mühüm qələbənin təmin edilməsində göstərdiyi qətiyyətdən son dərəcə sevinir və fəxr edir. Bu gün Azərbaycan Ordusunda müstəsna peşəkarlıqlarını, Vətənə xüsusi məhəbbətini bütün dünyaya nümayiş etdirmiş qəhrəman əsgərlər, çavuşlar, gizirlər, zabitlər, generallar var. Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Şuşa, Ağdam, Kəlbəcər, Laçında dalğalanan üçrəngli bayraq Ali Baş Komandanımız İlham Əliyevin müstəsna və məğlubedilməz liderlik qabiliyyətinin, o cümlədən ordumuzun sarsılmaz qüdrətinin bariz nümunəsidir. İşğalçı Ermənistanı tamamilə tabe olmağa məcbur etməklə Azərbaycan bütün Vətən müharibəsi boyu ərazi bütövlüyünü və tarixi ədaləti qorudu. Belə ki, 44 günlük münaqişədə əldə edilən möhtəşəm qələbə nəticəsində regionda yeni reallıqlar formalaşdı.

Prezident İlham Əliyev 2021-ci ilin fevralın 26-da həm yerli, həm də beynəlxalq media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında jurnalistlərin bir sıra suallarını cavablandıraraq Vətən müharibəsində respublikamızın möhtəşəm qələbəsini şərtləndirən amillərə, bu qələbənin regionda gətirdiyi yeni reallıqlara, işğaldan azad edilmiş ərazilərdə xalqımızın həyata keçirəcəyi bərpa planına diqqət yetirmişdir (12, s.5).

Təkcə Azərbaycan xalqına yox, ümumən bəşəriyyətə təhlükə yaradan erməni faşizminin ifşası üçün yerinə yetirilməli vəzifələrə diqqəti yönəldən Prezident İlham Əliyev demişdir: “Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik” (8, s.282).

44 günlük Zəfər müharibəsinin çox mühüm nəticələrindən biri də bu oldu ki, qələbəmiz cəmiyyətdəki vətəndaş həmrəyliyini həmişə olduğundan da çox, yeni, daha yüksək səviyyəyə qaldırmış oldu.

Müxtəlif ölkələrdən olan siyasətçilər, politoloqlar, ən qəribəsi isə, Ermənistanın himayədarları belə, etiraf edirlər ki, bu müharibə Azərbaycan vətəndaşlarının hamılıqla öz dövlət başçılarının ətrafında birləşmələrini bütün dünyaya nümayiş etdirdi.

"Dəmir yumruq" erməniləri və onların havadarlarını əzdi. Onlar bu dərsi hələ uzun müddət xatırlayacaqlar. “Bu gün orada başını qaldıran bəzi revanşist qüvvələr bilməlidirlər ki, "dəmir yumruq" yerindədir, lazım gələrsə, vura bilərik ki, bu, əbədi olaraq bitsin” (9).

Hərbi Qənimətlər Parkı hər birimizin qürur yeridir. Burada bir vacib məqamı qeyd etmək yerinə düşərdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışındakı nitqində tarixi qələbəmizin əhəmiyyəti ilə bağlı bir sıra mühüm fikirlər səsləndirmişdir. Qeyd edək ki, Hərbi Qənimət Parkı qazanılan tarixi qələbənin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Burada hər bir ziyarətçiyə təqdim olunan Vətən müharibəsinin gedişindən bəhs edən eksponatlar Azərbaycana qələbə gətirən döyüşləri yenidən yaşamağa geniş imkan yaradır.

Parkın açılışında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər” (7, s.108-109).

İkinci Qarabağ müharibəsi göstərdi ki, gənclərimizə vətənpərvərlik hissinin aşılanması sahəsində də mühüm irəliləyişlər əldə olunmuşdur. Təbii ki, ordu quruculuğunda, ordunun texnologiya ilə təminatında, döyüş şücaətində, peşəkarlıqda, şəxsi heyətin yaşayış şəraitində və ümumilikdə xidmət şəraitində təkmilləşdirmələr aparılmışdı.“Biz artıq Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin qanını aldıq və qisasımızı döyüş meydanında aldıq. Amma bununla bərabər, Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu şübhəsizdir. O cümlədən, bizim hərbi gücümüz artacaq” (6, s.35).

## Nəticə

Qarabağ müharibəsi Azərbaycan xalqının tarixinin şanlı səhifəsidir. Düşmənə sarsıdıcı zərbələr vurmaqla qələbə qazanan Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Ermənistan ordusunun məğlubedilməzliyi haqqında mifləri dağıtdı. İşğal olunmuş ərazilər azad

edildikdən sonra bütün dünya ermənilərin vəhşi təbiətinə bir daha əmin oldu.

Qeyd edək ki, bütövlükdə türk dünyası bizim qələbəmizlə fəxr edir. Bizim tərəfimizdən regionda yeni bir reallıq quruldu. Bu gün hər kəs nəzərə almalıdır ki, Azərbaycan öz zəfəri ilə müsəlman dövlətlərinin məruz qaldığı ixtişaşlar, vətəndaş qarşıdurmaları və başqa bu kimi əksər vaxt xaricdən olan təsirlər nəticəsində məruz qaldığı xoşagəlməz hallar qarşısında aciz qalmaları barədə qlobal təsəvvürləri dağıtdı.

Şübhəsiz ki, bu qələbənin qazanılmasında Azərbaycanın igid və cəsur əsgər və zabitlərinin mühüm rolu olmuşdur. Bunun nəticəsidir ki, bütün Azərbaycan əhalisi Vətənin müdafiəsində canlarından keçmiş bütün şəhidlərimizə və torpaqlarımızın xilaskarı olan bu şəxsiyyətlərə hər zaman minnətdar olacaqlar. Bu möhtəşəm tarixi nailiyyəti yaradanlar xalqımız tərəfindən həmişə xatırlanacaq və əziz tutulacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Alıyev, Yusif 44 günlük Vətən müharibəsi Şanlı tariximizdir. [Elekrton resurs] / URL: https://www.muallim.edu.az/news.php?id=22165*

*2. Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2020, - 02 dekabr. – s.1.*

*3. Baxşəliyev, Rəşad. Azərbaycan. - 2022. - 1 iyul. - s.1;7.*

*4. "Bu tarixi Qələbəmizi hüquqi müstəvidə, siyasi müstəvidə daha da möhkəmləndirəcəyik" [Elekrton resurs] / URL: // https://www.e-huquq.az/az/news/siyaset/20892.html*

*5. Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz altıncı kitab. oktyabr 2020 - noyabr 2021 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2021. - 392 s.*

*6. Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz on üçüncü kitab. iyun 2021 - avqust 2021 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2021. - 392 s.*

*7. Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz on dördüncü kitab. mart 2021 - may 2021 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2021. - 392 s.*

*8. Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz on beşinci kitab. oktyabr 2021 - noyabr 2021 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2021. - 392 s.*

*9. Ermənistandakı revanşist qüvvələr unutmasın ki, "Dəmir Yumruq" yerindədir. [Elekrton resurs] / URL: // https://www.yeniazerbaycan.com/YAPxeber_e71467_az.html*

*10. Mehriban Əliyeva: "Biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik" [Elekrton resurs] / URL: // https://report.az/qarabag/mehriban-eliyeva-bizim-her-birimiz-boyuk-qelebe-anini-yaxinlasdirmaq-ucun-elimizden-geleni-etmeye-borcluyuq/*

*11. Məlikli, Günel. Prezident İlham Əliyev Azərbaycanı yeni zirvələrə aparır // Xalq qəzeti 2021. - 25 dekabr. - s.16.*

*12. Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu / Buraxılış № 30 (I hissə). Bakı: 2022, 204 s.*

*13. Süleymanov, Vasif. Tarixi zəfərimiz qürur mənbəyimizdir // Respublika. – 2021, - 11 mart. – s.5.*

*14. 6 iyun Silahlı Qüvvələr Günüdür. 26 İyun 2021. // [Elekrton resurs] / URL: https://www.muallim.edu.az/news.php?id=16522&lang=*

**Aysel Şamilova**

**Ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizənin cəmiyyətdə ictimai-siyasi fəallığın güclənməsində əhəmiyyəti**

**XÜLASƏ**

27 sentyabr 2020-ci il tarixində mövcud atəşkəs sazişini kobud şəkildə pozan Ermənistan hərbçiləri cəbhə xəttinə yaxın yaşayış məntəqələrini məqsədyönlü şəkildə artilleriya atəşinə tuturaq Azərbaycana qarşı yeni döyüş əməliyyatlarına başladılar. Birinci Qarabağ müharibəsi zamanı Ermənistan ordusunun zəbt etdiyi əraziləri geri almaq və Ermənistanın Azərbaycana hücumunu dayandırmaq üçün sentyabrın 27-də bütün cəbhə boyu əks hücuma başlandı. Çoxdan gecikmiş tarixi ədaləti otuz ildən sonra 44 gün davam edən İkinci Qarabağ müharibəsi bərqərar etdi.

Azərbaycan xalqı münaqişə zamanı inanılmaz bərabərlik və həmrəylik nümayiş etdirərək, Ali Baş Komandan Prezident İlham Əliyevin yanında birləşdi. Vətən övladları torpaqlarımız üçün canlarından keçdilər. Bütün bunların mənası var idi və nəticədə Azərbaycan işğalçılara qalib gəldi və öz qədim ərazilərini geri aldı.

Vətən Müharibəsi Azərbaycan Milli Ordusunun hər bir üzvünün vətənin müdafiəsi yolunda canından keçməyə, onları məğlub etməyə nə qədər hazır olduğunu düşmənə bir daha nümayiş etdirdi, bizim əsas istəklərimizi və duyğularımızı ortaya qoydu.

**Açar sözlər:** *Qarabağ, müharibə, vətənpərvər, həmrəylik, birlik, üçtərəfli bəyannamə, qələbə.*

**Айсель Шамилова**

**Значение борьбы за восстановление нашей территориальной целостности в усилении общественно-политической активности общества**

**РЕЗЮМЕ**

27 сентября 2020 года армянские военные, грубо нарушившие действующее соглашение о прекращении огня, начали новые военные операции против Азербайджана, обстреляв артиллерийским огнем жилые районы вблизи линии фронта. 27 сентября по всему фронту было начато контрнаступление с целью отбить территории, оккупированные армянской армией в ходе Первой Карабахской войны, и остановить нападение Армении на Азербайджан. Давно отсроченная историческая справедливость была установлена Второй Карабахской войной, продолжавшейся более тридцати лет.

Народ Азербайджана проявил невероятное равенство и солидарность во время конфликта и объединился под руководством Главнокомандующего, Президента Ильхама Алиева. Дети Родины погибли за нашу землю. Все это имело смысл, и в результате Азербайджан разгромил захватчиков и вернул себе свои древние территории.

Отечественная война еще раз продемонстрировала врагу, насколько каждый член Азербайджанской Национальной Армии готов умереть за защиту Родины, победить его, и выявила наши главные желания и эмоции.

**Ключевые слова:** *Карабах, война, патриотизм, солидарность, единство, трехсторонняя декларация, победа.*

**Aysel Shamilova**

**The importance of the struggle to restore our territorial integrity is in strengthening the socio-political activity of society**

**SUMMARY**

On September 27, 2020, the Armenian military, in gross violation of the current ceasefire agreement, launched new military operations against Azerbaijan, shelling residential areas near the front line with artillery fire. On September 27, a counteroffensive was launched along the entire front to recapture the territories occupied by the Armenian army during the First Karabakh War and stop Armenia's attack on Azerbaijan. Long-delayed historical justice was established by the Second Karabakh War, which lasted more than thirty years.

The people of Azerbaijan showed incredible equality and solidarity during the conflict and united under the leadership of the Commander-in-Chief, President Ilham Aliyev. The children of the Motherland died for our land. All this made sense, and as a result, Azerbaijan defeated the invaders and regained its ancient territories.

The Patriotic War once again demonstrated to the enemy how every member of the Azerbaijan National Army is ready to die for the defense of the Motherland, to defeat it, and revealed our deepest desires and emotions.

**Keywords:** *Karabakh, war, patriotism, solidarity, unity, tripartite declaration, victory.*